* * *

Hər aşiqin bir yarı var,
Əlamətdi mənim yarım.
Başdan ayağa naz ilə
Nəzakətdi mənim yarım.

Gedəndə, getməyib mən də,
Ayrılıb can qaldı səndə;
Məhəbbət elə düşəndə,
Əmanətdi mənim yarım.

Çəkərsən ruyinə pərdə,
Salarsan aşiqi dərdə;
Üz gizləmək gözəllərdə
Nə adətdi, mənim yarım?!

Şikəstə Zakiri görcək
Üstünə qəmzə tiğin çək.
Aşiqə kuyində ölmək
Səadətdi, mənim yarım!

* * *

Hüsnün sultanı gözlərə
Tamam xanü paşa qurban.
Şəbnəm kimi gül üzündə
Qətrə-qətrə yaşa qurban.

Olmuşam dərdə həvalə,
Çəkirəm sübhədən nalə;
Əqliü huşum-zülfü xalə,
Mən özüm-yay qaşa qurban.

Götür tiğini dəstinə,
Can sədəqədir şəstinə,
İki nərgisi-məstinə
Gətirmişəm qoşa qurban.

Bir aşiq bəsdir qurbana,
Batma munca nahaq qana;
Yatar dərində yan-yana,
Veribdir baş-başa qurban.

Qətl eylə Zakiri-zari,
Yoxdur özgə tələbkari,
Ondan qeyri, səni tari,
Kəsmə, həddən aşa qurban.

* * *

Cəfa çəkdim, bağ yetirdim,
Gülşəni xarə tapşırdım.
Bunca fikrü xəyal etdim,
Tapmadım çarə tapşırdım.

Ölsəm qoyun, sizi tarı,
Yönümü dilbərə sarı.
Özüm öz əlimlə yarı
Bu gün əğyarə tapşırdım.

Nə qədər eylədim minnət,
Vəslinə vermədi fürsət;
Lailac olub, aqibət
Gənci şəhmarə tapşırdım.

Qaldım misali-pərvanə,
Eşq oduna yanə-yanə;
Canı göndərdim cananə,
Dili dildarə tapşırdım.

Xəstə Zakir kimi hanı
Könlü olan qəm məkanı?
Mən öldüm, ahü ofğanı
Bülbüli-zarə tapşırdım.

BAYATILAR

Bir Tərtər, bir İncə var,
Camçapar bürünc ovar
Aşiqin gizli dərdi
Dağların birincə var.

Bağında birgəzən var,
Bürünmüş bürqə zənvar.
Xəyalım dağınıqdır,
Könlümdə bir gəzən var.

Aşiq o yağiləndir,
Piltə o yağ iləndir.
"Vəhdəhu la şərik"in[1]
Lütfü oyağ iləndir.

Aşiqəm gör düğünü,
Ay doğdu, gördü günü,
Cənnətdə görməz aşiq
Qoynunda gördüğünü.

Aşiq Minayə dəgər,
Xalın Minayə dəgər,
İl var bir günə dəgməz,
Gün var min ayə dəgər.

Gəldi bir baqi süvar,
Bağban, sən bağı suvar.
Gül dəftərin bükübdür,
Bülbülün baqisi var.

Gəldi bir yaxşı süvar,
Gir bağa yaxşı suvar:
Aləmin malü mülkü,
Aşiqin yaxşısı var.

[1] "O vahiddir, şəriki yoxdur" (Allaha işarədir).

Yorğanında birə var,
İki qumuq, bir avar.
Rüstəmi-zal olasan,
Fələk səni bir ovar.

Gətirdin abugərdən,
Ver mürğə a bekar, dən,
Bilmədin yar qədrini,
Sınasan, a bu gərdən.

Aşiq hərayə çatar,
Oxur hər ayə çatar,
Can çıxdı, canan gəlməz,
Haray harayə çatar?

Dur atlan, yanına var,
Oxlanan yanın ovar,
Dindirərəm dinməzsən,
Arada yenə nə var?

Gözüm, səndə səda var,
İskəndərvar səda var[1]
Deyirlər canan gəlir,
Bir beləcə səda var.

Şuşa var, Dağdana var,
Mürğ üçün dağ dən ovar,
Göz yaşım selə döndü
Endidi[2] dağda nə var.

[1] İskəndər kimi sədə (çin divarına) get.
[2] Endirdi